ADB News Release
AZERBAIJAN RESIDENT MISSION, ASIAN DEVELOPMENT BANK

96 Nizami Street, 4th Floor
Landmark Building
Baku AZ1000, Azerbaijan
Tel + 994 12 496 58 00

# AİB İdarəetmə və Özəl Sektora dair Məsləhətləşmə Seminarı Keçirir

**Bakı, Azərbaycan (23 fevral 2006-cı il)-** Asiya İnkişaf Bankı (AİB) Azərbaycan üzrə strategiya və proqramı ilə bağlı iki əsas qiymətləndirməyə dair məsləhətləşmə seminarı keçirir. Özəl Sektorun Qiymətləndirilməsi və Ölkə İdarəetmənin Qiymətləndirilməsi Bakıda 23-24 fevral 2006-cı il tarixində keçiriləcək seminarların diqqət mərkəzində olacaq, burada, hökumət və özəl sektor nümayəndələri daxil olmaqla əsas maraqlı tərəflər və vətəndaş cəmiyyəti ilə nəticələr müzakirə olunacaq.

Bu iki qiymətləndirmə yekünlaşandan sonra aşkarlanacaq və əsas analitik sənəd kimi AİB-in strategiya və əməliyyat proqramına dəstək olacaq. Özəl Sektorun Qiymətləndirilməsi Azərbaycanda özəl sektorun inkişafı üçün imkanları və çətinklikləri müəyyən edir və AİB-in özəl sektorun inkişaf strategiyasının əsası kimi xidmət edir. Ölkə İdarəetmənin Qiymətləndirilməsi, digər tərəfdən sistematik şəkildə Azərbaycanda idarəetmənin keyfiyyətini qiymətləndirir və idarəetmənin keyfiyyəti ilə AİB-in yardım imkanlar və tərkiblər arasında bağlılığı möhkəmləndirmək məqsədi güdür.

Növbəti üç il ərzində Azərbaycanda davamlı iqtisadi artıma və yoxsulluğun azaldılmasına yönəlmiş AİB-in strategiyası və inkişaf yardım proqramı hal- hazırda hazırlıq mərhələsində olan Ölkə Strategiyası və Proqramına (ÖSP) əsaslanaraq aparılacaq. İki qiymətləndirmənin gəldiyi nəticələr bu prosesə dəyərli töhfə verəcək. ÖSP Hökumətin 10 illlik Yoxsulluğun Azaldılması Milli Strategiyası və Azərbaycanın Regionlarının Sosial İqtisadi İnkişafı üzrə Dövlət Proqramı ilə tənzimlənəcək.

“AİB maraqlı tərəflərin qiymətləndirmələrin hazırlamasında etdikləri töhfələri dəyərləndirir. Bu prosesdə iştirakı dəstəkləyərək biz, nəticələrin əldə edilməsində daha effektiv olmağa sövq edən strategiya və əməliyyatlarımız daxilində əməkdaşlıq yaradırıq” AİB-nin Azərbaycan üzrə ölkə direktoru Metyu Vestfol demişdir.

AİB-nin Azərbaycanda həyata keçirdiyi layihə və proqramlar haqda məlumat almaq üçün http://www.adb.org/azrm saytına baxa bilərsiniz.

*****

Manilada yerləşən AİB Mərkəzi Asiya və Sakit okean ölkələrində əhalinin yoxsul təbəqələrinin maraqlarına yönələn sabit iqtisadi yüksəliş, sosial inkişaf və zəruri idarəetmə vasitələri ilə yoxsulluğun azaldılmasına yönəldilmişdir. 1966- cı ildə yaradılmış bu təşkilat 46-sı bu regiondan olan 64 üzvdən ibarətdir. 2005-ci ildə AİB 6.95 milyard dəyərində kredit və qrant layihələrini və 198.8 milyon dəyərində texniki yardım təsdiq etmişdir.